*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 490-495*

https://doi.org/10.62837/2025.6.490

**TƏRANƏ ASLANOVA**
**Fil.f.d. aparıcı elmi işçi**
**taranaibadova@gmail.com**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**

# SÜLEYMAN RƏHİMOVUN “ Mehman “ povestində qəhrəman və zaman

XX əsrin əvvəllərində Azərbaycan ədəbi mühiti və eləcə də onun qabaqcıl ziyalılarını xurafatın ifşası, Azərbaycan qadınının taleyi, mədəni maarif sahəsindəki gerilik və s. məsələlərin qoyuluşu və həlli dərindən düşündürmüşdür. Bu baxımdan Süleyman Rəhimovun mövzu seçimi bütün dövrlər üçün aktual olmuşdur. Yazıçının yaradıcılığını nəzərdən keçirərkən xalqımızın həyat tərzinə xas olan koloriti görməmək mümkün deyil. Əsərlərində xalq yaradıcılığından bəhrələndiyini özü qeyd edən yazıçı xalq deyimlərindən, məsəllərdən və s. geniş istifadə etmişdir.Təkcə iri həcmli əsərlərində deyil, həm də kiçik həcmli hekayələrində də folklore nümunələrindən geniş istifadə etmişdir. “Pəri çınqılı” və “Gülən balıq” kitablarında toplanmış hekayələr toplusu bunun bariz nümunəsidir. Əsərlərində atalar sözlərindən, məsəllərdən və digər xalq nümunələrindən istifadə edən sənətkar insan epopeyasının əsasında Azərbaycan xalqının zəngin həyat tərzinin olmasını sübuta yetirir.

Müxtəlif yazıçıların yaratdıqları müxtəlif obrazlar hər dövr üçün aktual olan , sözünü deməyi bacaran , özündə həyatın həm şirkinliklərini, həm də gözəlliklərini cəmləşdirən obrazlar silsiləsidir. Ümumiyyətlə , hər bir obrazın daxili aləmini onun öz dili ilə açıb göstərmək oxucuda məhəbbət və ya əksinə nifrət hissini oyatmaq böyük ustalıq tələb edir ki, bu da Süleyman Rəhimovun yaradıcılığında öz əksini tapmışdır. Vətəni sevmək, onu qorumaq, ona layiqli ovlad olmaq , əməlləriylə onun keşiyində durmaq hər bir insanın həyat devizi olmalıdır. Pak, təmiz, saf amalla yaşamaq və digərlərinə örnək olmaq bütün yaradıcı insanların əsas amalıdır. Elə ona görə də Süleyman Rəhimovun yaratdığı hər bir əsərdə bu incə məqamlar diqqət cəlb edərək ön planda durur, kənd həyatı ilə şəhər həyatının vəhdəti , ziddiyyətli məqamlar , hadisələr öz əksini yaratdığı əsərlərdə aydınlığı ilə göstərilir. Xalqın səadətini , mənafeyini üstün tutan vətənpərvərlərin fədakarlığı , mədəni-maarif məsələlərinin qoyuluşu və həlli , ailə-məişət məsələlərindəki köhnəliyə qarşı mübarizə və s. mövzular daim bütün yazarların əsas mövzusunu əhatə edir. Bütün sadaladığımız xüsusiyyətlər Süleyman Rəhimovun nəsr yaradıcılığında öz əksini tapir. Bu növ mövzuları qələmə almaq və onları bədii boyalarla təsvir etmək özü bir məharət tələb edirdi. Rəngarəng mövzuya və ictimai-siyasi hadisələrin və eləcə də məişət məsələlərinin bədii ifadəsini əhatə etmək cəhətdən Süleyman Rəhimovun yaradıcılığı özünəməxsusluğu ilə seçilir. Yaratdığı obrazların səciyyəsindəki

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2025
Səh. 490-495

rəngarənglikdən doğan hadisələrin ardıcıllığı əsərlərində süjet xəttinin mürəkkəb cizgilər üzrə inkişaf etməsinə səbəb olmuşdur.

Yazıçının belə əsərlərindən biri "Mehman " povestidir. Mövzu və süjet xətti ilə seçilən bu əsər real həyatda baş verən hadisələrin bilavasitə təzahürüdür. Əsərin aparıcı obrazları olan Mehman və Qaloş sanki keçmişlə müasir həyat tərzinin toqquşmasını özündə əks etdirən qüvvələr kimi oxucuya təqdim edilir. Ümumiyyətlə, əsər boyu baş verən təzadlı hadisələr və təzadlar içində vurnuxan, qaranlıqlar içində işığa can atan Mehman , istərsə də digər müsbət obrazlar, Salamatov, Vahidov, Balış və digərləri daxili güclərini ağılları hesabına toplayaraq çətinliklərə sinə gərib hisslərinin qurbanına çevrilmirlər. Mehmanın əsərin əvvəlində hələ ilk gündən rastlaşdığı və ona gələcəyi haqqında şüşəni qıraraq evə atılan daş parçasıyla olunan təzyiq keşməkeşli bir yolda olduğundan xəbər verirdi. Çünki yazıçının məharətlə qələmə aldığı Qaloş obrazı cəmiyyətin bütün eybəcərliklərini özündə birləşdirən, riyakar, fitnə-fəsaddolu əməlləriylə istədiyinə nail ola bilməsə belə yenə də bütün əsər boyu əsas mənfi obraz kimi oxucuya təqdim edilir. Daim ayağında qaloşla gəzən və bu onun həyat simvoluna çevrilən Qaloşun qaloş ayaqqabıları onun xarakteri haqqında çox sözlər deyir. Əsərdə möhkəm xarakterik xüsusiyyətlərə malik olan həyatının qara lövhəlırini , çirkinliklərini gizlətməyə çalışan Qaloş nə qədər çalışsa da sonda iç dünyasının eybəcərlikləri ifşa olunur.

Yazıçı Süleyman Rəhimov bütün yaradıcılığı boyu öz istək və arzularını təxəyyülündə canlandırdığı azadlıq sinvolunu ruhun azadlığında görür. Qaloş obrazı isə bu saf, təmiz duyğuların, azad ruhun tam əksini özündə birləşdirən qəddar, hiyləgər, yalnız öz mənfəətini güdən və ən qorxulusu insan talelərinə acımayan bir obraz kimi təqdim edilir. Müəllifin yaratdığı Mühman obrazı isə Qaloşun tam əksi olaraq yüksək mənəvi keyfiyyətlərə malik olan əsl Aərbaycan kişisidir. Adət və ənənələrə sadiq qalan , mənəvi əxlaqi keyfiyyətləri özündə birləşdirən və onların yaşaması üçün əlindən gələni əsirgəməyən, bütün əsər boyu bu amallar uğrunda mübarizə aparan Mehman çətinliklərə sinə gərən əsl qəhrəman obraz olaraq əsərin əsas aparıcı qüvvəsi kimi təqdim edilir. " Mehman" povestini əsas aparıcı obrazlarından biri də Mehmanın həyat yoldaşı Züleyxa obrazıdır ki, yazıçı tərəfindən bilərəkdən Mehmanın tam əksi kimi qələmə alınaraq əsər boyu hadisələrin düyünlənməsinə, kəskin şəkil almasına zəmin yaradır. Hələ ilk günlərdən kənd həyatnı bəyənməyərək daim deyinir və yenidən şəhər həyatını arzulayaraq qayıtmaq üçün səy göstərir. Xarakterində olan bəzi əyintilər, qaş-daşa hərislik, dəbdəbəli həyat tərzi yaşamaq həvəsi onu Mehmanın əqidəsinə zidd bir insan kimi səciyyələndirən yazıçının Züleyxa obrazı ilə əsərdə baş verən hadisələrin mərkəzində durmağa imkan yaradır. Mənfilikləri çiyinlərində, əməllərində daşıyan Qaloş başa düşür ki, Züleyxanın sadəlövhlüyündən istifadə edərək çirkin əməllərinə, məqsədlərinə rahatlıqlq çata

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2025
Səh. 490-495

biləcək. Bu yolda Züleyxanın ona digərlərindən daha çox yardımçı ola biləcəyinə bir daha əmin olur. Mehmanı öz silahıyla vurmaq Qaloşun bu yolda daha rahat addımlayacağına bir daha inandırır. Əsər boyu yazıçı tərəfindən yaradılan ziddiyyətli xarakterlərə malik olan obrazlar silsiləsi əsəərdə hadisələrin daha da maraqlı macəra almasına bir daha zəmin yaradır. Kamilov obrazı da diqqətdən kənarda qlmayan obrazlardandır. Onun atmacalı sözləri , eyhamlı fikirləri Mehmanın gözündən yayınmır. Bir epizodu yada salmaq kifayət edir ki, Mehmanın və Kamilovun hər birinin hansı əqidəyə malik olması təsdiq edilsin. Hələ kəndə təzə gələn Mehman bir mərasimdə Kamilov tərəfindən rəqsə dəvət olunduğu zaman oynamaq bilmədiyini desə də Kamilov onun əlindən tutaraq israrla rəqs etməyi ondan tələb edir. Mehman onun sözünü yerə salmayıb yalandan olsa da əl qaldırıb rəqs edir. Kamilov isə bundan istifadə edərək " belə sözə baxan olsan bizim camaatdan çox şey öyrənərsən" deyə istehza ilə gülərək guya Mehmana məqsədlərini qandırmasından əmin olur. Lakin Mehman cavabında " tələsməyin cücəni pyızda sanarlar" deyib məqsədini gizli şəkildə ona anlatması düz əqidəli, vicdanlı, xalq üçün çalışan, qanun keşiyində duran Mehmanın kimliyini bir daha sübuta yetirir. Əsərin aparıcı obrazları olan Mehmanla Qaloş sanki keçmişlə müasir həyat tərzinin toqquşmasını özündə əks etdirən qüvvələr kimi oxucuya təqdim edilir. Ümumiyyətlə əsər boyu baş verən təzadlı hadisələr və təzadlar içində vurnuxan , qaranlıqlar içində işığa can atan istər Mehman, istərsə də digər müsbət obrazlar daxili güclərini ağılları hesabına toplayaraq çətinliklərə sinə gərib hisslərinin qurbanına çevrilmirlər. Ruhən azad olan insan qaranlıqda işıq, çətinlikdə rahatlıq, ümiddə səadət tapan insandır. Yazıçının yaratdığı Mehman obrazı məhz belə obrazdır. Lakin adı çəkilən povestin baş qəhrəmanı Mehmanın həyat tərzi ilə təzad təşkil edən ömür-gün yoldaşı Züleyxanın fikir və düşüncələri , duyğu və hissləri Mehmanın saf, təmiz, təmənnasız məhəbbətinə cavab verə bilmir. Onalın bir-birinə olan məhəbbətlərinin xarakterlərində olan ziddiyyəti səbəbindən Züleyxa təsir altına düşərək öz amal və istəklərinin, arzularının ziddinə gedərək uçurumun bir addımlığında dayanır. Zəiflik göstərərək cəmiyyətin iyrəncliklərinin qurbanına çevrilmək təhlükəsiylə üzləşir. Acaq onu bu çətinlikdən yenə də ailə bağları və onun ahatəsində olan saf, təmiz düşüncəyə malik olan insanlar çıxarir. Qəhrəmanları kamillik nümunəsi kimi vermək bacarığı, ona münasibət, yanaşma və təsvir üsulu müəllifdən bacarıq və ustalıq tələb edir. Bu xüsusiyyətlər Süleyman Rəhimovun bütün müsbət qəhrəmanlarında öz əksini tapir. Əsər boyu müəyyən uğursuzluqlara duçar olan Mehman əsərin sonunda ağlı, düşünülmüş addımları sayəsində bütün onu əhatə edən mənfur, ikiüzlü, riyakar insanlara qalib gəlir və qanunun aliliyini, onun keşiyində duran insanların milli mənəviyyatının zənginliyini və bu yolda mübarizliyin əsas məqsəd olduğunu bir daha sübut edir. Bu qalibiyyət isə yenə də cəmiyəti irəli

aparan , sağlam düşüncəyə malik olan xalq və onun birliyi nəticəsində baş verir. Həyat həqiqətlərinə obyektiv münasibət bəsləyən yazıçı insan arzuları ilə mövcud quruluşun qanunları arasındakı ziddiyyəti bədii ümumiləşdirmələr yolu ilə təsvir etmişdir.

Əsərin bir çox hissələrində düşdüyü çətinliklərlə üzbəüz qalan Mehman ruhunu sakitləşdirəcək heç bir qüvvə görmür, təsəllini xəyallarla yaşamaqda tapir. Həyata bağlılığı, dürüstlüyü cəmiyyətdə baş verən hadisələrə ziddiyyət əks etdirsə də, sağlam düşüncə tərzi və uzagörənliyi , xalqa inamı onu çətinlikdən xilas olmağa xidmət edir. Başqa sözlə insani keyfiyyətlərdən, bəşəri hisslərdən qidalanan insan öz düşüncə və duyğularında azad və məğlubedilməzdir. Sovet dövründə yaşayıb yaratmış Azərbaycanın bir çox yazıçıları kimi Süleyman Rəhimov da Sovet rejiminin qayda- qanunlarına riayət etmiş, əsərlərində bu dövrə xas olan hadisələri, obrazları o dövrə xas bir şəkildə yaratmağa, təqdim etməyə müyəssər olmuşdur. Yazıçı xarakteri ilə dövrün, rejimin diktəsi ziddiyyət təşkil etsə də müəllif əsərlərində bunun öhtəsindən məharətlə gəlmiş və öz əsrlərini öz istədiyinə, amalına uyğun bir şəkildə ərsəyə gətirmişdir. Onun həyata baxəşə, nikbin ruhu yaradıcılığına da hakim kəsilmişdi. Bu səbəbdən də milli ruh onun əsərlərində həmişə öndə olmuş, həmişə əsərlərinin əsas qayəsini təşkil etmişdir. Bütün yazarlar kimi o da öz soy kökünə, vətəninə, elinə, torpağına, adət-ənənələrinə bağlı olmuş və bu keyfiyyətləri yaratdığı obrazların timsalında məharətlə qələmə almışdır. Yazıçının üslubuna gəldikdə isə demək olar ki, əsərlərində həssaslığa, duyğuya, emossionallığa daha çox üstünlük vermişdir. Əsərlərinin mövzusunu real həyatdan götürən yazıçı güclü müşahidə qabiliyyətinə malik idi. İlk baxışda zəif və zərif görünən qadın obrazlarını əslində çox güclü və əyilməz bir obrazlar kimi yaratmışdır. Əsər boyu Züleyxa zəif xarakteri üzündən başına gələn bəlaların nəticəsində səhvini başa düşərək günahkar qismində boynybükük şəkildə oxucuya təqdim edilir. Yanında güclü, qətiyyətli, sədaqətli, düz, saf, təmiz insanın, Mehmanın olması həyat gerçəkliklərini başa düşməyə, anlamağa, dərk etməyə imkan yaradır. Bu da yazıçının xarakter, həyat tərzi baxımından bir-birinə zidd olan, fərqli düşüncə sahiblərini bir dam altında yaşadaraq sonda xeyrin şərə,düzün yalana qalib gəlməsi anlamını bir daha təsdiqləyir. Yazıçının yaratdığı obrazların daxili aləmlərinə nüfuz etməsi əsərlərinin ideya sənətkarlıq xüsusiyyətlərini və həll etmək istədiyi problem dairəsini müəyyənləşdirir.

İstər məzmun, istər mövzu, istərsə də obrazların sadəliyi baxımından diqqəti cəlb edən “Mehman “ əsəri reallığı özündə əks etdirən bir həyat həqiqətidir. Əsər kəskin mübarizələr zəminində qurulmasa da, obrazların daxili aləmi ilə xarici mühit arasında bir təzad mövcuddur. Qəhrəmanlarının daxili aləmlərini ustalıqa açmağı bacaran, onların iç dünyasını olduğu kimi qələmə alan müəllif məsum baxışları ilə qəlbinin təmizliyini, abır-ismətini, nəcib

duyğularını, keçdiyi həyat yolunu Mehmanın anasının simasında məharətlə tərənnüm etmişdir. Bu ana obrazı isə yalnız və yalnız Mehman kimi mərd, cəsur, həqiqət aşiqi və qanun keşiyində duran bir oğul böyüdüb boya- başa çatdıra bilərdi. Süleyman Rəhimov bu obrazlar vasitəsiylə hakim dövrü, mühiti, cəmiyyəti və bu cəmiyyətdə baş verən eybəcərlikləri və hökm sürən ideologiyanı tamlığı ilə obrazlı şəkildə qəhrəmanlarının dili ilə tərənnüm etmişdir. Süleyman Rəhimovun bütün əsərləri hər zaman dövrün, mühitin, cəmiyyətin həyat tərziylə səsləşmişdir. Özündən əvvəlki dühaların nəfəsini, dilini öz yaradıcılığında yaşadan yazıçının əsərləri, yaratdığı obrazları bu gün də aktuallığını itirməmiş, bu gün də gülüş hədəfinə çevrilən real həyatda baş verən hadisələrlə səsləşən həmişə yaşar obrazlar, əsərlər olaraq qalacaqdır.

**Açar sözlər : Yazıçı, mühit, əsər, üslub, yaratmaq, zaman, dövr, həyat, obraz, mövzu, sədaqət, düzlük, saf, təmiz, məqsəd, rejim, fikir, duyğu, düşüncə, cəmiyyət.**

## XÜLASƏ

Məqalə Süleyman Rəhimovun yaradıcılığından bəhs edir. Oxucuların sevə-sevə oxuduğu “ Mehman “ povesti bu gün də aktualdır. Bu əsərdə olan bütün obrazlar yazıçının məharətlə , ustalıqla qələmə aldığı obrazlar silsiləsidir. Əsər qanun keşiyində duran hüquq müdafiəçisi Mehmanın həyatından bəhs edir. Onun əsər boyu apardığı mübarizələr onun qalibiyyətidir. Çətinliklərlə üzləşən Mehman əsərin sonunda qalib gəlir. Məqsədinə, amalına sadiq qalan Mehman əsərin baş qəhrəmanıdır. Əsərdə acı həqiqətlər olsa da sonda xeyir şərə qalib gəlir. Yazıçı istəyinə nail olur. Əsərin dili və üslubu da çox maraqlıdır. Süleyman Rəhimovun yaratdığı əsərlər Azərbaycan ədəbiyyatı tarixinin əvəzolunmaz incilərindəndir.

**Ключевые слова:** писатель, литературная среда, произведение, художественный стиль, творческий процесс, исторический контекст, жизненный путь, персонаж, тематика, преданность, нравственность, чистота, цель, идеология, мысль, эмоция, размышление, социум.

## РЕЗЮМЕ

Настоящая статья посвящена анализу творческого наследия выдающегося азербайджанского писателя Сулеймана Рагимова. Особое внимание уделяется повести «Мехман», которая, несмотря на прошедшее время, сохраняет свою актуальность и вызывает интерес у современного читателя. В произведении представлены персонажи, созданные автором с исключительным

художественным мастерством, отражающие сложные социальные и нравственные реалии эпохи.

Центральным образом повести является правозащитник Мехман, чья деятельность и внутренние переживания раскрываются сквозь призму борьбы за справедливость и правду. Его стойкость перед лицом жизненных испытаний и верность собственным идеалам формируют основу повествования. Финал произведения символизирует торжество добра над злом, что соответствует гуманистическим устремлениям автора.

Язык и стиль повести отличаются выразительностью и глубиной, способствуя более полному восприятию художественного замысла. Творчество Сулеймана Рагимова занимает значимое место в истории азербайджанской литературы и представляет собой важный объект литературоведческого исследования.

**Keywords:** author, literary environment, work, stylistic approach, creative process, historical period, life journey, character, thematic focus, loyalty, integrity, purity, objective, regime, intellectual thought, emotion, contemplation, society.

**TARANA ASLANOVA**

**"The Hero and Epoch in Suleyman Rahimov's Novella Mehman".**

**SUMMARY**

This article offers a scholarly examination of the literary legacy of the prominent Azerbaijani writer Suleyman Rahimov. Particular emphasis is placed on his novella *Mehman*, which continues to resonate with contemporary readers due to its enduring relevance and thematic depth. The narrative presents a gallery of characters crafted with remarkable artistic precision, reflecting the complex socio-moral landscape of the time.

At the heart of the novella stands Mehman, a legal advocate whose life and inner struggles are portrayed through his unwavering commitment to justice and truth. His resilience in the face of adversity and steadfast adherence to personal ideals serve as the narrative's driving force. The conclusion of the work, wherein good ultimately triumphs over evil, aligns with the author's humanistic vision.

The language and stylistic choices employed in the novella contribute to its expressive power and facilitate a deeper engagement with the author's artistic intent. Suleyman Rahimov's oeuvre holds a distinguished place in the canon of Azerbaijani literature and constitutes a valuable subject for literary analysis and academic inquiry.

**Rəyçi: professor Nadir Məmmədli**